*Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzi xəbərdarlıq edir!*

# Məişətdə qazdan təhlükəsiz istifadə qaydaları

***Məişətdə qaz cihazı və sobalarından geniş istifadə edilir. Buna görə də yanğın, partlayış və qazdan zəhərlənmə kimi hadisələrin baş verməməsi üçün təhlükəsizlik qaydalarını bilməyiniz vacibdir:***

—qeyri-standart qaz cihazından istifadə etməyin;

—qaz cihazını daim saz vəziyyətdə saxlayın;

—qaz cihazının təhlükəsizlik hissə və elementlərini çıxarmayın;

—qazın nəqli üçün yalnız metal şlanqlardan istifadə edin;

—qaz cihazının təmiri və yoxlanılmasını, tüstü bacasının təmizlənməsini yalnız mütəxəssisə həvalə edin;

—qaz cihazı olan otaqda nəfəsliyi açıq saxlayın;

—işlək qaz cihazını nəzarətsiz qoymayın. Onun üstündəki çaydan və qazanda suyun səviyyəsini elə saxlayın ki, qaynayanda daşıb tökülməsin. Bu, alovun sönməsinə və qaz sızmasına səbəb ola bilər;

—qaz plitəsi üzərində dəsmal və geyim qurutmayın;

—evi isitmək məqsədilə mətbəxdəki qaz plitəsindən istifadə etməyin;

—qaz cihazını işlək vəziyyətdə qoyub yatmayın;

—qaz sobasını həddən artıq qızdırmayın;

—işləyən qaz cihazını uşaq, yaşlı və ya xəstə adama etibar etməyin;

—evdən çıxdıqda qaz cihazını mütləq söndürün və qaz borusu üzərindəki kranı bağlayın;

—mənzilə girdikdə yalnız qaz sızmadığına tam əmin olduqdan sonra işıq və elektrik cihazını yandıra, açıq alovdan istifadə edə bilərsiniz. Qaz sızmasından sübhələndikdə isə dərhal qapı-pəncərələri açın, evə qazın girişini bağlayın və mütəxəssis çağırın.

Unutmayın: Qaydalara biganəlik- həyatımıza təhlükədir!

***Təhlükə zamanı 112-yə zəng edin!***

# Boks üzrə rayon birinciliyi

***Qəbələ Rayon Gənclər və İdman İdarəsi "Azərbaycan Respublikasının Dövlət müstəqilliyinin bərpasının 25 illiyi"nə həsr edilmiş tədbirlər planına əsasən silsilə dətbirlər həyata keçirir. Bu məqsədlə 18 noyabr 2016-cı il tarixdə Qəbələ Olimpiya İdman Kompleksində boks idman növü üzrə yeniyetmə və katedlər arasında rayon birinciliyi keçirilmişdir.***

Yarışı giriş sözü ilə rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov açaraq yarışın keçirilməsinin məqsəd və vəzifələri haqqında danışmışdır. O, bildirmişdir ki, öz müstəqilliyini qazanmış Azərbaycan dövləti bu 25 il ərzində çox güclü inkişaf mərhələsini keçmiş, ölkədə hər bir sahədə olduğu kimi idman sahəsində də nəhəng infrastruktur yaradılmış, dünya səviyyəli idmançılar yetişdirlilmişdir. Belə yarışların keçirilməsi də siz gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında sağlam tərbiyə olunmasından ibarətdir.

Birinciliyin keçirilməsində həmçinin məqsəd rayonda boks idman növünün inkişaf etdirilməsi, yeniyetmələrə sağlam həyat tərzinin aşılanması, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsində bədən tərbiyəsi və idmanın rolunun artırılması, həmçinin idmançılarımızın idman ustalıqlarının artırılması, yığma komandalara namizədlərin hazırlanması və Olimpiya İdman Komplekslərindən səmərəli istifadə edilməsindən ibarətdir.



Yarışda boks üzrə məşqçi müəllimlər Zaur Tahirov və Ramiz Mirkamalovun yetirmələri olan 25 boksçu 16 çəki dərəcəsində mübarizə aparmışdır. Ramal Yolçuyev, Kənan Yolçuyev, Nahid Qədirov, Fərid İsmayılov, Nurlan Qasımov, Namiq Yaralıyev müvafiq çəki dərəcələrində I yeri tutmuşlar.

Hər çəki dərəcəsində I, II və III yeri tutan qaliblərə rayon gənclər və idaman idarəsinin diplomları təqdim edilmişdir.

**✍ Müşfiq ABBASOV,**
**gənclər və İdman idarəsi rəisinin müavini.**

# Tolerantlıq nümunəsi–Qəbələ

Böyük Qafqaz dağlarının ətəyində, geniş düzənliklərdə yerləşən, Qafqaz Albaniyasının mədəni və mənəvi varisi sayılan udilər məhz azərbaycanlıların onlara tolerant münasibəti sayəsində yüzilliklər ərzində öz etnik və dini kimliklərini qoruyub saxlayıblar. Dünyada yüksək dağlıq ərazilərdə müxtəlif etnik qrupların öz mövcudluqlarını qoruyub saxlamaları ilə bağlı xeyli nümunələr var. Lakin düzənlik ərazidə fərqli dinə mənsub azsaylı xalqların əsrlər boyu öz mövcudluğunu saxlaması nadir hadisədir. Bu yalnız, Azərbaycan və Qəbələ tolerantlığına xas bir nümunədir.

Gün ərzində həm azan, həm də kilsə zənginin eşidildiyi Nic qəsəbəsində bu günkü dini mühit Qəbələ tolerantlığının ən parlaq səhifələrindəndir. Alban kilsəsinin mülkiyyəti erməni Qriqoryan kilsəsinə verilən zaman udilər buna qəti etiraz etmiş, siyasi hakimiyyətə qarşı çıxmaqdan çəkinməmişdir. Həmin dövrdə Çar Rusiyasının məqsədi tarixi Alban kilsəsinin ləğv edilərək erməni qriqoryan kilsəsi kimi fəaliyyət göstərməsi, eləcə də udiləri erməniləşdirmək idi. Və o zaman udilər artıq seçim etməli idilər. Onlar ya erməni Qriqoryan kilsəsinin tabeliyinə keçib erməniləşməli, ya da ümumiyyətlə kilsəyə getməməli idilər. Udilər ikincini seçdilər və erməniləşib xristian qalmaqdansa, kilsəyə getməməyi üstün tutdular. 150 ildən sonra Azərbaycan öz müstəqilliyini bərpa etdikdə udilər öz kilsələrini bərpa etmək imkanı qazandılar.

Yuxarıda qeyd etdiyimiz kimi bu gün tarixi Alban-udi kilsəsinin fəaliyyət göstərdiyi Nic qəsəbəsində xristian udilərlə yanaşı müsəlmanlar da yaşayır. Onlar birlikdə yaşamağın ən gözəl yolunu qarşılıqlı hörmətdə görürlər. Bu gün Nic qəsəbəsi təkcə azərbaycanlıların deyil, yüzlərlə müxtəlif dini inanclara aid xarici turistlərin ziyarət etdiyi, heyranlıqlarını gizlədə bilmədiiklləri tolerantlıq möcüzəsidir.

Qəbələdə aparılan abadlıq, quruculuq işlərində bütün etnik qrupların böyük əməyi vardır. Onlar rayonun iqtisadi inkişafına uğurlu töhfələr verir, rayonu özlərinin əzəli və əbədi vətəni hesab edirlər. Böyük fədakarlıq göstərən etnik insanların sayəsində rayonun qəsəbə və kəndləri gündən-günə dəyişir, müasirləşir və daha da füsunkar diyara çevrilir. Rayonun sürətli inkişafı sayəsində yeni yaradılan sənaye obyektləri, turizm infrastrukturları burada çalışan xalqların birgəyaşayış və dostluq hisslərinə stimul verir.

Qəbələdə «Multikulturalizm ili» çərçivəsində bir sıra tədbirlər, konfranslar, sərgilər keçirilir və bu işlər ardıcıl davam etdirilir.

Cənab Prezident İlham Əliyevin apardığı milli siyasət və 2016-cı ili «Multikulturalizm ili» elan etməsi həmin xalqlar arasında humanizm, həmrəylik və dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasına xidmət edir.

**✍ Azər ŞİRİNOV.**

# Kəndlinin payız qayğıları

***Adətən payızı məhsul yığımı mövsümü kimi tanımışıq. Kəndli bu mövsümdə ilboyu çəkdiyi zəhmətin bəhrəsini toplayıb. Güzəranı da topladığı məhsula uyğun müəyyənləşib. Məhsulu bol olan məhsul bayramı keçirib, payızda. Məhsulu zəif olan gələn mövsümdə daha yaxşı məhsul götürmək üçün fikirləşib bu fəsildə. Əvvəllər toy-nişan da payızda keçirilərdi. Payız xeyir-bərəkət, toy-bayram fəslidir desək yanılmarıq. Payızın başqa bir özəlliyi də var. Payızda gələn ilin məhsulunun əsası qoyulur. Payızlıq taxıl səpilir. Bağ-bağçada budama işləri aparılır. Yeni bağlar salınır, ağaclar əkilir. Bağbanlar yaxşı bilirlər ki, payızda əkilən ağac tingləri yazda əkilənlərə nisbətən qarşıdan gələn qızmar yay fəslinə daha dözümlü olur və daha tez inkişaf edirlər. Bir sözlə, payız kəndlinin işinin ən qızğın çağıdır. Rayonumuzun kəndlərində payız işləri necə gedir. Bunu öyrənmək məqsədilə bir neçə kənd inzibati ərazi nümayəndəsi ilə əlaqə saxladıq.***

**Kürd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Eyyub Alıyev:**

—Kəndimizdə payızlıq taxıl əkininin qızğın çağıdır. İndiyə qədər 700 hektardan çox sahədə payızlıq taxıl səpilib. Əkinçilərə kənd təsərrüfatı texnikasının, gübrələrin, ziyanvericilərlə mübarizədə lazım olan dərmanların əldə edilərək çatdırılmasında nümayəndəlik yaxından iştirak edir.

Vaxtilə Kürd kəndi qabaqcıl baramaçılıq kəndi sayılırdı. Qısa müddətdə yetişən bu məhsul kəndlilərin güzəranının yaxşılaşmasında mühüm rol oynayırdı. Keçmiş SSRİ-yə daxil olan indiki müstəqil respublikalarla iqtisadi əlaqələrin kəsilməsi, ölkədəki ipəkçilik kombinatlarının fəaliyyətinin dayanması, bir sözlə, bazarın olmaması başqa yerlərdə olduğu kimi bu kəndə də kümçülərin baramaçılığa olan marağını yox etdi. İpək qurdunun yetişdirilməsi üçün lazım olan tut (çəkil) bağları kəsilib məhv edildi.

Ölkə Prezidenti cənab İlham Əliyevin kənd təsərrüfatı məhsullarının, o cümlədən xarici ölkə bazarlarına çıxarıla bilən barama məhsulunun artırılması barədə verdiyi tapşırıqdan sonra kənd əməkçiləri baramaçılıq kimi gəlirli sahənin dirçəldilməsinə başlamışlar. Kürdlülər baramaçılıq sahəsində kəndin keçmiş şöhrətini qaytarmaq əzmi ilə çəkil bağlarının salınmasına xüsusi əhəmiyyət verirlər. Qısa müddətdə xeyli tut tingi gətirilərək əkilmişdir.

* * *

***Zərgərli kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yusif Cabbarov:***

—Zərgərli kənd camaatı əsasən maldarlıq və taxılçılıqla məşğuldur. Əvvəllər ancaq maldarlıqla məşğul olan əhalinin yaşadığı bu kənddə indi əkinçilik və bağçılıq da inkişaf edir. Əkinçilərimiz payızlıq taxıl səpinini başa vurmaq üzrədirlər. Bundan başqa ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən hər yerdə olduğu kimi bu kənddə də yeni fındıq bağlarının salınması geniş vüsət alıb. Artıq 5 hektardan çox sahəyə fındıq tingləri basdırılıb. Köhnə bağlarda budama, quru ağacların kəsilib sahədən çıxarılması işləri davam edir. Qışa hazırlığımız da yaxşı vəziyyətdədir. Mal-qara üçün kifayət qədər yem tədarük edilib.

**✍ Qüdrət SƏMƏOV.**